İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin "01/22" nömrəli
"31" "yanvar" 2019-cu il tarixli əmri ilə təsdiq edilmişdir.

İdarə Heyətinin sədri ____________ Zaur Əliyev
(imza, M.Y.)

**Pilot layihə çərçivəsində həkimlərin əmək haqlarına əlavələrin hesablanması və ödənilməsi Qaydaları**

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 28 dekabr tarixli 1181 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Mingəçevir şəhərinin, Yevlax və Ağdaş rayonlarının inzibati ərazilərində icbari tibbi sığortanın tətbiqinə dair pilot layihə"nin (bundan sonra – pilot layihə) 15-ci hissəsinə uyğun olaraq hazırlanmışdır və pilot layihə çərçivəsində İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin (bundan sonra – Agentlik) tabeliyinə verilmiş dövlət səhiyyə sisteminə daxil olan qurumlarda (bundan sonra – tibb təchizatçıları) göstərilən tibbi xidmətlərin müqabilində həkimlərin mövcud əmək haqlarına əlavələrin verilməsi qaydasını müəyyən edir.

1.2. İcbari tibbi sığorta çərçivəsində həkimlərin əmək haqlarına tətbiq edilən əlavələr iki növdən ibarətdir:

1.2.1. icbari tibbi sığortanın həyata keçirilməsi ilə əlaqədar olaraq həkimlərin əmək haqlarına tətbiq edilən stimullaşdırıcı əlavələr;

1.2.2. həkimlərin fəaliyyətinin kəmiyyət göstəricilərinin dəyərləndirilməsi məqsədilə normativlərin yerinə yetirilməsi ilə bağlı verilən əlavələr (bundan sonra – normativlərlə bağlı əlavələr).

## 2. Əmək haqlarına stimullaşdırıcı əlavələrin verilməsi qaydaları

2.1. İcbari tibbi sığortanın tətbiqi məqsədilə tibb təchizatçılarının yeni prinsiplərə əsasən maliyyələşməsi ilə əlaqədar olaraq həmin tibb təchizatçılarında çalışan həkimlərin ixtisasından və ya vəzifəsindən asılı olaraq "Səhiyyə müəssisələrində çalışan işçilərin əməkhaqlarının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 1 mart tarixli 3731 nömrəli Sərəncamı, "Dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq tarif (vəzifə) maaşlarının tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 13 mart tarixli 89 nömrəli Qərarı, "Azərbaycan Respublikasının büdcədən maliyyələşdirilən səhiyyə işçilərinin əməyinin ödənilməsi sisteminin, növlərinin və məbləğinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 9 yanvar tarixli 2 nömrəli Qərarı ilə və digər normativ hüquqi aktlarla tənzimlənən mövcud əmək haqlarına hər ay stimullaşdırıcı əlavələrin məbləği aşağıdakı qaydada müəyyənləşdirilir:

| Sıra nömrəsi | İxtisasın və ya Vəzifənin adı | Həkimlərin əmək haqlarına tətbiq edilən stimullaşdırıcı əlavələrin məbləği (vergilər və digər tutulmalar daxil olmaqla) | |
|---|---|---|---|
| | | Ambulator fəaliyyət üzrə | Stasionar fəaliyyət üzrə |
| 2.1.1. | Təcili tibbi yardım üzrə həkimlər | 200 manat | |
| 2.1.2. | Terapevtik ixtisaslar üzrə (Həkim-stomatoloq istisna olmaqla) çalışan həkimlər, Pediatrik ixtisaslar üzrə (Həkim-cərrah və Həkim-anestezioloq-reanimatoloq, Həkim-stomatoloq istisna olmaqla) çalışan həkimlər | 240 manat | 360 manat |
| 2.1.3. | Həkim-mama-ginekoloq, Həkim-neonatoloq, Həkim-anestezioloq-reanimatoloq və cərrahi ixtisaslar üzrə çalışan həkimlər | 240 manat | 540 manat |
| 2.1.4. | Provizor vəzifəsi üzrə çalışan həkimlər | 300 manat | |
| 2.1.5. | Ailə həkimi ixtisasları üzrə çalışan həkimlər | 360 manat | |
| 2.1.6. | Həkim-laborant ixtisası üzrə çalışan həkimlər | 380 manat | |
| 2.1.7. | Həkim-statistik vəzifəsi üzrə çalışan həkimlər | 380 manat | |
| 2.1.8. | Həkim-radioloq, şua diaqnostikası, şua terapiyası, Həkim-qastroenteroloq-endoskopist və Ultrasəs müayinəsi ixtisasları üzrə çalışan həkimlər | 540 manat | |
| 2.1.9. | "Ailə Sağlamlıq Mərkəzi" şöbəsinin rəhbəri vəzifəsi üzrə çalışan həkim | 540 manat | |
| 2.1.10. | Aptek bölümünün rəhbəri vəzifəsi üzrə çalışan həkim | 630 manat | |

2.2. Şöbə və ya bölmə rəhbəri (müdiri) vəzifəsi funksiyalarını yerinə yetirən həkimlərin əmək haqları iş həcmi və əmək şəraitinin gərginliyi nəzərə alınaraq onların mövcud əmək haqlarına bu Qaydaların 2.1-ci bəndində müvafiq ixtisasa görə müəyyən edilən stimullaşdırıcı əlavələrin verilməsi, habelə stimullaşdırıcı əlavələrin 15%-i həcmində artırılması (vergilər və digər tutulmalar daxil olmaqla) yolu ilə müəyyənləşdirilir.

2.3. Fizioterapiya prosedurunu təyin edən həkimlərin əmək haqlarına hər pasiyent üçün vergilər və digər tutulmalar daxil olmaqla 1 manat məbləğində stimullaşdırıcı əlavə tətbiq edilir.

2.4. EKQ (elektrokardioqramma) rəyləri yazan həkimlərin əmək haqlarına hər pasiyent üçün vergilər və digər tutulmalar daxil olmaqla 1 manat məbləğində stimullaşdırıcı əlavə tətbiq edilir.

## 3. Normativlərlə bağlı əlavələrin verilməsi qaydaları

3.1. Bu Qaydaların 3.3-cü bəndinə uyğun olaraq tibb təchizatçılarında çalışan həkimlərin pilot layihə çərçivəsində fəaliyyətinin ölçülməsi, dəyərləndirilməsi və normativlərlə bağlı əlavələrin verilməsi məqsədilə onlar tərəfindən göstərilən tibbi xidmətlərə normativlər tətbiq olunur. Normativlər tibb təchizatçılarında çalışan həkimlər tərəfindən göstərilən fəaliyyətin effektivliyinin kəmiyyət baxımından aşağı və yuxarı həddini müəyyən edir.

3.2. Bu Qaydaların 3.3-cü bəndinə uyğun olaraq tibb təchizatçılarında çalışan həkimlər tərəfindən normativlərin aşağı həddini aşaraq göstərilən hər növbəti tibbi xidmət üçün əmək haqlarına normativlərlə bağlı əlavələr tətbiq edilir. Normativlərin yuxarı həddini aşaraq göstərilən növbəti tibbi xidmətlər üçün normativlərlə bağlı əlavələr ödənilmir.

3.3. Tibb təchizatçılarında çalışan həkimlər üçün normativlər, normativlərin aşağı həddini aşaraq hər növbəti tibbi xidmətlərə görə ödənilən normativlərlə bağlı əlavələrin məbləği aşağıdakı qaydada müəyyənləşdirilir:

| **Sıra nömrəsi** | **İxtisasın və ya Vəzifənin adı** | **Normativlər** | **Həkimlər tərəfindən normativlər yerinə yetirildiyi təqdirdə, normativlərlə bağlı əlavələrin məbləği (vergilər və digər tutulmalar daxil olmaqla)** |
|---|---|---|---|
| 3.3.1. | Terapevtik və Pediatrik ixtisaslar üzrə (Həkim-terapevt və Həkim-pediatr istisna olmaqla) çalışan həkimlər | Ambulator fəaliyyət üzrə hər həkim üçün iş günü normativi: minimum 10 sığorta olunan pasiyentə həkim müayinəsinin (ixtisaslı həkim baxışı) aparılması, lakin 20 sığorta olunan pasiyentdən yuxarı olmamaq şərtilə | Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 28 dekabr tarixli 1181 nömrəli Fərmanı ilə müvafiq tibbi xidmət üçün təsdiq edilmiş tarifin (bundan sonra - tarif) (ƏDV-siz) 15% həcmində hər həkim müayinəsi üzrə |
| | | Stasionar fəaliyyət üzrə hər həkim üçün təqvim ayı normativi: minimum 10 sığorta olunan pasiyentə həkim təqibinin aparılması, lakin 60 sığorta olunan pasiyentdən yuxarı olmamaq şərtilə | Hər sığorta olunan pasiyent üzrə 1-5 yatış günü ərzində hər gün üçün 2 manat, 5 gündən artıq yatışlar üçün 1-10 yatış günü ərzində hər gün üçün 1 manat, lakin hər sığorta olunan pasiyent üzrə 10 yatış günündən çox olmamaq şərtilə |
| 3.3.2. | Həkim-terapevt və Həkim-pediatr ixtisasları üzrə çalışan həkimlər | Ambulator fəaliyyət üzrə hər həkim üçün iş günü normativi: minimum 12 sığorta olunan pasiyentə həkim müayinəsinin (ixtisaslı həkim baxışı) aparılması, lakin 20 sığorta olunan pasiyentdən yuxarı olmamaq şərtilə | Hər həkim müayinəsi üzrə tətbiq edilmiş tarifin (ƏDV-siz) 15% həcmində |

| | | | |
|---|---|---|---|
| | | Stasionar fəaliyyət üzrə hər həkim üçün təqvim ayı normativi:<br>minimum 10 sığorta olunan pasiyentə həkim təqibinin aparılması, lakin 60 sığorta olunan pasiyentdən yuxarı olmamaq şərtilə | Müşayət olunmuş hər pasiyent üzrə 1-5 yatış günü ərzində hər gün üçün 2 manat, 5 gündən artıq yatışlar üçün 1-10 yatış günü ərzində hər gün üçün 1 manat, lakin hər pasiyent üzrə 10 yatış günündən çox olmamaq şərtilə |
| 3.3.3. | Həkim-mama-ginekoloq və bütün cərrahi ixtisaslar üzrə çalışan həkimlər | Ambulator fəaliyyət üzrə hər həkim üçün iş günü normativi:<br>minimum 10 sığorta olunan pasiyentə həkim müayinəsinin (ixtisaslı həkim baxışı) aparılması, lakin 20 sığorta olunan pasiyentdən yuxarı olmamaq şərtilə (əməliyyata göndərilən sığorta olunan pasiyentlər istisna olmaqla) | 1) Hər həkim müayinəsi üzrə tədbiq edilmiş tarifin (ƏDV-siz) 15% həcmində;<br><br>2) Həkim müayinəsi üzrə normativi ödəməsindən asılı olmayaraq ay ərzində aparılmış bütün cərrahi prosedurlar üzrə tətbiq edilmiş tarifin orta dəyərinin sığorta olunan pasiyent sayına hasilinin (ƏDV-siz) 15% həcmində, lakin sığorta olunan pasiyent sayının ay ərzindəki iş günləri üzrə cəmi normativdən yuxarı olmamaq şərti ilə |
| | | Stasionar fəaliyyət üzrə hər həkim üçün təqvim ayı normativi:<br>10 sığorta olunan pasiyentə əməliyyatın (zərf paketinə daxil olmayan əməliyyatlar istisna olmaqla) həyata keçirilməsi (fizioloji doğuş daxil olmaqla) | Həyata keçirilmiş əməliyyatların orta dəyərinin 10 misli əməliyyatların cəmi dəyərindən azaldıldıqdan sonra icra olunmuş əməliyyatlar üçün tətbiq edilmiş tarifin (ƏDV-siz) toplam məbləğinin 15% həcmində |
| 3.3.4. | Cərrahi ixtisaslar üzrə çalışan asistent həkimlər | Hər həkim üçün təqvim ayı normativi:<br>10 sığorta olunan pasiyentə əməliyyatın (zərf paketinə daxil olmayan əməliyyatlar istisna olmaqla) həyata keçirilməsi zamanı asistent fəaliyyəti, lakin 60 əməliyyatdan yuxarı olmamaq şərtilə | Hər asistentlik üzrə icra olunmuş əməliyyatların orta dəyərinin 10 misli əməliyyatların cəmi dəyərindən azaldıldıqdan sonra icra olunmuş əməliyyatlar üçün tətbiq edilmiş tarifin (ƏDV-siz) 1.5% həcmində |

| | | | |
|---|---|---|---|
| | | Normativ tətbiq olunmur | Sığorta olunan hesab edilməyən şəxslərin əməliyyatı zamanı göstərilmiş hər asistentlik üzrə icra olunmuş əməliyyat üçün tətbiq edilmiş tarifin (ƏDV-siz) 1.5% həcmində |
| 3.3.5. | Həkim-anestezioloq-reanimatoloq ixtisası üzrə çalışan həkimlər | Hər həkim üçün təqvim ayı normativi:<br>10 sığorta olunan pasiyentə (zərf paketinə daxil olmayan əməliyyatlar istisna olmaqla) anesteziya verilməsi | Hər anesteziya üzrə icra olunmuş əməliyyatların orta dəyərinin 10 misli əməliyyatların cəmi dəyərindən azaldıldıqdan sonra icra olunmuş əməliyyatlar üçün tətbiq edilmiş tarifin (ƏDV-siz) 3% həcmində |
| | | Normativ tətbiq olunmur | Sığorta olunan hesab edilməyən şəxslərə aparılmış hər anesteziya üzrə icra olunmuş əməliyyat üçün təsdiq edilmiş tarif (ƏDV-siz) məbləğinin 3% həcmində |
| 3.3.6. | Terapevtik və cərrahi ixtisasları üzrə çalışan həkimlər | Normativ tətbiq olunmur | Sığorta olunan hesab edilməyən şəxslərə tibbi xidmətlər göstərildikdə tətbiq edilmiş tarifin (ƏDV-siz) 30% həcmində |
| 3.3.7. | Həkim-stomatoloq ixtisası üzrə çalışan həkimlər | Normativ tətbiq olunmur | Sığorta olunan hesab edilməyən şəxslərə tibbi xidmətlər göstərildikdə tətbiq edilmiş tarifin (ƏDV-siz) 60 % həcmində, göstərilən xidmətə sərf olunan tibbi ləvazimat xəstəxana tərəfindən təmin olunmur |
| 3.3.8. | Struktur bölüm rəhbəri vəzifəsində çalışan həkimlər | Normativ tətbiq olunmur | Müvafiq tibbi xidmətlərin göstərilməsi nəticəsində verilən arayışlara (obliqat qrupların dövri tibbi müayinələri üzrə verilən arayışlar istisna olmaqla) və tibbi çıxarışlara görə tətbiq edilmiş tarifin (ƏDV-siz) 15% həcmində |
| 3.3.9. | Funksional diaqnostik müayinə (Maqnit rezonans tomoqrafiya və Kompyuter | Hər həkim üçün iş günü normativi:<br>minimum 10 sığorta olunan pasiyentə diaqnostik | Hər diaqnostik müayinə üzrə tətbiq edilmiş tarifin orta dəyərinin müayinə sayına hasilinin (ƏDV-siz) |

| | | | |
|---|---|---|---|
| | tomoqrafiya, Laborator müayinələr, EEQ, EMQ və endoskopik müayinələr istisna olmaqla) ixtisasları üzrə çalışan həkimlər | müayinənin aparılması, lakin 20 sığorta olunan pasiyentdən yuxarı olmamaq şərtilə | 10% həcmində, lakin müayinə sayının ay ərzindəki iş günləri üzrə cəmi normativdən yuxarı olmamaq şərti ilə |
| 3.3.10. | EEQ (Elektroensefaloqrafiya), EMQ (Elektromioqrafiya) və endoskopik müayinə ixtisasları üzrə çalışan həkimlər | Hər həkim üçün iş günü normativi:<br>minimum 5 sığorta olunan pasiyentə diaqnostik müayinənin aparılması, lakin 10 sığorta olunan pasiyentdən yuxarı olmamaq şərtilə | Hər diaqnostik müayinə üzrə tətbiq edilmiş tarifin (ƏDV-siz) 10% həcmində |
| 3.3.11. | MRT (Maqnit rezonans tomoqrafiya) və KT (Kompyuter tomoqrafiya) müayinə ixtisasları üzrə çalışan həkimlər | Normativ tətbiq olunmur | Aparılmış hər diaqnostik müayinə üzrə tətbiq edilmiş tarifin (ƏDV-siz) 10% həcmində |

3.4. İş günü normativi tətbiq olunan ixtisas və vəzifələrdə normativlərlə bağlı əlavələr əldə etmək hüququ hər ayın sonunda bir iş günü üçün təyin olunan normativin təqvim ayındakı mövcud iş günlərinin sayına vurulmaqla hesablanan ümumi aylıq normativi yerinə yetirdiyi təqdirdə yaranır. Aylıq normativlərin hesablanması zamanı həkimlərin ezamiyyət, məzuniyyət və Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada vəzifə öhdəliklərinin icra edə bilmədiyi dövr nəzərə alınmır.

3.5. Reanimasiya şöbəsində çalışan həkimlər üçün normativlərin yerinə yetirilib yetirilməməsindən asılı olmayaraq hər gecə növbəsi üçün vergilər və digər tutulmalar daxil olmaqla 30 manat, gecə növbəsi zamanı tibbi xidmət göstərilən hər pasiyent üçün vergilər və digər tutulmalar daxil olmaqla 5 manat məbləğində normativlərlə bağlı əlavələr verilir.

3.6. Doğum şöbəsində həkim-neonatoloqların mövcud əmək haqlarına normativlərin yerinə yetirilib yetirilməməsindən asılı olmayaraq vergilər və digər tutulmalar daxil olmaqla yeni doğulmuş uşağın hər yatış günü üçün 1 manat məbləğində normativlərlə bağlı əlavələr verilir. Yeni doğulmuşların stasionar yatış günləri 4 gün müddətini aşdıqda, hər növbəti gün üçün normativlərlə bağlı əlavələr hesablanmır.

3.7. Normativ tətbiq olunan vəzifə və ixtisaslar üzrə çalışan həkimlər tərəfindən bu Qaydaların 3.3-cü bəndində göstərilmiş normativlər son iki ayın orta statistik nəticələrinə əsasən 70%-i yerinə yetirilmədikdə, həkimlərin mövcud əmək haqlarına bu Qaydaların 2-ci hissəsi ilə tənzimlənən stimullaşdırıcı əlavələrin verilməsi dayandırılır. Həkim tərəfindən bu Qaydaların 3.3-cü bəndində göstərilən normativlər fəaliyyət göstərdiyi 1 (bir) ay ərzində yerinə yetirildikdə, stimullaşdırıcı əlavələrin ödənilməsi həmin aydan etibarən bərpa olunur.

3.8. Ümumi cərrah ixtisası üzrə çalışan həkimlər tərəfindən dar ixtisaslı həkimlərin səlahiyyətlərinə aid olan cərrahi əməliyyatların icra olunduğu təqdirdə (bir şərtlə ki, dar ixtisaslı həkimlər xəstəxanada fəaliyyət göstərmir), normativlərlə bağlı əlavələrin hesablanması ümumi cərrah ixtisası üzrə çalışan həkimlərə eyni qaydada tətbiq edilir.

3.9. Struktur bölüm rəhbəri vəzifəsi funksiyalarını yerinə yetirən həkimlərin iş həcminin və iş gərginliyinin nəzərə alınması məqsədilə bu Qaydaların 3-cü bəndində göstərilmiş normativlərin aşağı həddi onların fəaliyyətinə tətbiq olunmur.

3.10. Nəticələrinin oxunmasına və raportun verilməsinə ehtiyac olmayan funksional diaqnostik müayinələr üçün normativlərlə bağlı əlavələr hesablanmır.

3.11. Bu Qaydaların 3-cü hissəsi ilə müəyyən olunmuş əlavələr təqvim ayı ərzində işçinin işlədiyi iş günlərinin sayına uyğun olaraq hesablanır.

3.12. Ay ərzində göstərilmiş xidmətlərin Agentlik tərəfindən aparılan ekspertizası zamanı dəyəri ödənilməmiş xidmətlər üzrə normativlərlə bağlı əlavələr ödənilmir.

## 4. Əlavələrin verilməsinin xüsusi şərtləri

4.1. Həm ambulator, həm də stasionar fəaliyyət göstərən həkimlər fəaliyyətləri üzrə hər iki normativi yerinə yetirərsə, bu halda onların mövcud əmək haqlarına bu Qaydalarla müəyyən edilmiş əlavələrdən daha yüksək məbləğdə olan əlavə tətbiq olunur.

4.2. Tibbi xidmətlərin göstərilməsi zamanı həkimin səhlənkarlığından və ehtiyatsızlığından pasiyentin vəfat etməsi Tibbi Şura tərəfindən verilmiş rəyə əsasən təsdiqlənərsə, bu halda göstərilən tibbi xidmət üzrə heç bir əlavə hesablanmır.